# AVROPA STATİSTİKASININ NORMALAR MƏCƏLLƏSİ

## MİLLİ VƏ YERLİ STATİSTİKA ORQANLARI ÜÇÜN

Avropa Statistika Sistemi Komitəsinin iclasında qəbul edilmişdir
28 sentyabr 2011-ci il

Avrostat Avropa statistika sistemi

## Ön söz

### Avropa statistika sisteminin konsepsiyası[1]

*"Avropa statistika sistemi statistik informasiya xidməti sahəsində dünya lideri və Avropa İttifaqı və Aİ-nin üzv dövlətləri üçün vacib məlumat tədarükçüsü olacaqdır. Elmi prinsip və metodlara əsaslanaraq Avropa statistika sistemi demoqrafik proseslər və cəmiyyətdə inkişaf üçün əsas olan, uyğunlaşmış statistika sistemini təqdim edəcək və daima təkmilləşdirəcəkdir".*

### Avropa statistika sisteminin ümumi vəzifəsi

*"Biz Avropa İttifaqını, dünyanı və cəmiyyəti ümumavropa, milli və regional səviyyələrdə iqtisadiyyat və cəmiyyət haqqında müstəqil, yüksək keyfiyyətli məlumatlarla təmin edirik və elmi-tədqiqat məqsədlərdə və debatlar üçün qərarların qəbul edilməsi məqsədilə istifadə edilməsi üçün bu məlumatları hamı üçün əldə edilə bilən edirik".*

Hazırkı ümumi vəzifə və konsepsiyanın yerinə yetirilməsi üçün Avropa statistika sisteminin üzvləri məqsədyönlü idarəetmə siyasəti, tərəfdaşlıq, işçi heyətin təmin edilməsi və daima təkmilləşdirilməsi də daxil olmaqla Avropa statistikası normalar məcəlləsinin prinsiplərinə və keyfiyyətin idarə edilməsi üçün ümumi prinsiplərə uyğun olaraq istifadəçilərlə əməkdaşlığa və qarşılıqlı fəaliyyətlərə can atırlar.

### Avropa statistikasının normalar məcəlləsi

Avropa statistikasının normalar məcəlləsi institutsional mühiti, statistik məlumatların və onların nəticələrinin istehsal prosesinin əhatə edən 15 prinsipə əsaslanır. Hər bir prinsip üzrə qabaqcıl təcrübə göstəriciləri şəbəkəsi Məcəllənin tətbiqinə nəzarət üçün əsas kimi xidmət edir. Avropa statistikasının keyfiyyət meyarları "Statistika haqqında Avropa reqlamenti"ndə qeyd edilmişdir[2].

Komissiyaya (Avrostat) daxil olan statistika orqanları[3], milli statistika orqanları və Avropa statistikasının[4] Avropa statistikasının işlənməsi, istehsalı və yayılmasına

---

[1] Reqlament (AK) 223/2009, 4-cü maddə
[2] Reqlament (AK) 223/2009, 12-ci maddə
[3] Reqlament (AK) 223/2009, 4 və 5-ci maddələr

cavabdeh olan digər dövlət orqanları hökumətlər, nazirliklər və Avropa İttifaqı ilə birlikdə bu Məcəlləyə əməl etməyə borcludur.

Keyfiyyətin idarə edilməsi üçün ümumi prinsiplərlə birlikdə Normalar məcəlləsinin prinsipləri özlərində Avropa statistika sistemində keyfiyyətin təmin edilməsinin ümumi normativ çərçivələrini əks etdirir.

## İnstitutsional mühit

Avropa statistikasını inkişaf etdirən, istehsal edən və yayan statistika orqanlarının işinin səmərəliliyinə və məlumatlarının doğruluğuna peşəkar müstəqillik, məlumatların toplanması üçün səlahiyyətlərin, kifayət qədər ehtiyatların mövcudluğu, keyfiyyətin təmin edilməsi üzrə öhdəçilik, statistik konfidensiallıq, qərəzsizlik və obyektivlik kimi idarəçilik və təşkilati amillər əhəmiyyətli dərəcədə təsir göstərir.

### 1-ci prinsip: Peşəkar müstəqillik

**Statistika orqanlarının digər siyasi, nizamlayıcı və inzibati idarə və təşkilatlardan, həmçinin özəl sektorun operatorlarından peşəkar müstəqilliyi (asılı olmaması) Avropa statistikasının doğruluğunu təmin edir.**

**Göstəricilər:**

1.1 Statistikanın təkmilləşdirilməsi, istehsalı və yayılmasında Milli Statistika İnstitutları və Avrostatın siyasi və digər kənar müdaxilələrdən müstəqilliyi qanunla təsbit edilmiş və digər statistika orqanları üçün də təmin olunmuşdur.

1.2 Milli Statistika İnstitutları, Avrostat və zəruri hallarda digər statistika orqanlarının rəhbərləri siyasi orqanların və inzibati dövlət təşkilatlarının rəhbərliyinə sıxmaq imkanı verən kifayət qədər yüksək iyerarxiya statusuna malikdirlər. Onlar ən yüksək peşəkar ixtisasa malik şəxslərdir.

1.3 Milli Statistika İnstitutları, Avrostat və zəruri hallarda digər statistika orqanlarının rəhbərləri Avropa statistikasının təkmilləşdirilməsi, istehsalı və yayılmasının müstəqilliyinə cavabdehlik daşıyırlar.

---

[4] Reqlament (AK) 223/2009, 1-ci maddə. Normalar məcəlləsində "Avropa statistikasının işlənməsi, istehsalı və yayılmasına cavabdeh olan digər dövlət orqanları" daha sonra "digər statistika orqanları" adlanır.

1.4 Milli Statistika İnstitutları, Avrostat və zəruri hallarda digər statistika orqanlarının rəhbərləri statistik metod, standart və prosedurların, o cümlədən statistik nəşrlərin məzmunu və buraxılış tarixinin müəyyənləşdirilməsində qərarların qəbul edilməsi üçün fərdi məsuliyyət daşıyırlar.

1.5 Statistik iş proqramları dərc edilir, onların yerinə yetirilməsinin gedişi dövri hesabatlarda işıqlandırılır.

1.6 Statistik relizlər dəqiq çərçivələrlə məhdudlaşdırılır, siyasi kursun və ya həyata keçirilən siyasətin qiymətləndirilməsini əks etdirmir.

1.7 Milli Statistika İnstitutları, Avrostat və zəruri hallarda digər statistika orqanları statistikaya dair məsələləri açıq şərh edir, eyni zamanda statistikadan səhv istifadə edilməsi hallarının qarşısını alır.

1.8 Milli Statistika İnstitutları, Avrostat və zəruri hallarda digər statistika orqanlarının rəhbərlərinin vəzifəyə təyin edilməsində yeganə meyar onların peşəkar təcrübəsidir. Vəzifədən azad olunmaq üçün əsaslar qanunvericilikdə nəzərdə tutulmuşdur. Bu əsaslar peşəkar və ya elmi müstəqilliyi pozmamalıdır.

**2-ci prinsip: Məlumatların toplanması üzrə səlahiyyət**

**Statistika orqanları Avropa statistikasının ehtiyacları üçün məlumatların toplanması üzrə aydın qanuni səlahiyyətlərə malik olmalıdırlar. Qanun statistika orqanlarının tələblərinə uyğun olaraq inzibati təşkilatları, müəssisələri, ev təsərrüfatlarını, vətəndaşları Avropa statistikasının ehtiyacları üçün gərəkli olan öz məlumatlarına girişi təmin etməyə və ya məlumatları bildirməyə məcbur edə bilər.**

**Göstəricilər:**

2.1 Avropa statistikasının təkmilləşdirilməsi, istehsalı və yayılması üçün məlumatların toplanması üzrə səlahiyyətlər qanunda qeyd edilmişdir.

2.2 Qanun statistika orqanlarına statistik ehtiyaclar üçün inzibati məlumat mənbələrindən istifadə etməyə icazə verir.

2.3 Statistika orqanları normativ aktlar əsasında respondentlərin statistik sorğularda məcburi iştirakını tələb edə bilər.

**3-cü prinsip: Ehtiyatların kifayətliliyi**

**Statistika orqanlarının sərəncamında olan ehtiyatlar Avropa statistikasının tələblərini ödəmək üçün kifayət etməlidir.**

**Göstəricilər:**

3.1 Cari statistik ehtiyaclarını ödəmək üçün kifayət qədər kəmiyyət və keyfiyyət baxımından insan, maliyyə və kompüter ehtiyatları mövcuddur.

3.2 Statistikanın əhatəsi, təfsilatı və xərcləri onun ehtiyacları ilə uyğundur.

3.3 Tələb edilən xərclərə uyğun olaraq, yeni statistik məlumatların istehsalının qiymətləndirilməsi qaydaları və sifarişlərin əsaslandırılması müəyyənləşdirilmişdir.

3.4 Bütün statistika barəsində cari tələblərin qiymətləndirilməsi qaydası elə müəyyən edilmişdir ki, zəruri hallarda ehtiyatları azad etmək üçün müəyyən məlumatların istehsalını dayandırmaq və ya ixtisara salmaq mümkün olsun.

**4-cü prinsip: Keyfiyyətin təmin edilməsi üzrə öhdəçilik**

**Statistika orqanları keyfiyyəti təmin etməyə borcludurlar. Onlar, proses və məhsulların keyfiyyətinin artırılması məqsədilə sistematik və müntəzəm olaraq güclü və zəif tərəflərin qiymətləndirilməsini aparırlar.**

**Göstəricilər:**

4.1 Keyfiyyət sahəsində siyasət müəyyənləşdirilmiş və ictimaiyyət üçün açıqdır. Keyfiyyətin idarə edilməsi üzrə təşkilati struktur və vasitələr mövcuddur.

4.2 Statistik məlumatların istehsalı proseslərinin keyfiyyətinin planlaşdırılması və nəzarət üsulları tətbiq olunmuşdur.

4.3 Məhsulların keyfiyyətinin müntəzəm monitorinqi, keyfiyyət üzrə mümkün kompromis predmetlərin qiymətləndirilməsi və Avropa statistikasının keyfiyyət meyarlarına uyğun olaraq müvafiq hesabatlar təmin edilir.

4.4 Zəruri olduqda müstəqil ekspertlərin iştirakı ilə əsas statistik məlumatların diqqətlə yoxlanılması keçirilir.

**5-ci prinsip: Statistik məxfilik**

**Respondentlərin (ev təsərrüfatlarının, müəssisələrin, idarələrin və digərlərinin) şəxsi həyatlarının toxunulmazlığı üçün, onlardan alınan məlumatların məxfiliyinə və yalnız statistik məqsədlər üçün istifadə edilməsinə bütövlükdə zəmanət verilməlidir.**

**Göstəricilər:**

5.1 Statistik məlumatların məxfiliyinə qanunla zəmanət verilir.

5.2 Statistika orqanının işçiləri işə qəbul olunarkən sirrin açılmamasına dair iltizam verir.

5.3 Statistik məlumatların məxfiliyinin qəsdən pozulmasına görə cəza təyin edilir.

5.4 Statistik məlumatların istehsalı və yayılması prosesində, onların məxfiliyinin qorunması üzrə təlimatlar və normativlər işlənib hazırlanmışdır. Məxfilik siyasəti haqqında məlumat ictimaiyyətə çatdırılmışdır.

5.5 Statistik məlumat bazalarının təhlükəsizliyi və bütövlüyü fiziki, texniki və təşkilati vasitələrin köməyi ilə qorunur.

5.6 Tədqiqat məqsədləri üçün statistik mikro-məlumatlara giriş almaq üçün kənar istifadəçilər ciddi protokollara riayət edirlər.

**6-cı prinsip: Qərəzsizlik və obyektivlik**

**Statistika orqanları tərəfindən Avropa statistikasının təkmilləşdirilməsi, istehsalı və yayılması elmi mülahizələrin müstəqilliyinə hörmət, obyektivlik, peşəkarlıq, şəffaflıq prinsipinə riayət etmək və bütün istifadəçilərə eyni münasibət ruhunda həyata keçirilir.**

**Göstəricilər:**

6.1 Statistik məlumatların toplanması statistikanın tələbləri ilə şərtləşdirilmiş obyektiv əsasda yerinə yetirilir.

6.2 Mənbələrin və statistik üsulların seçilməsi, həmçinin statistik məlumatların yayılması haqqında qərarların qəbul edilməsi statistikanın tələbləri ilə şərtləndirilmişdir.

6.3 Rəsmi statistik nəşrlərdə aşkar edilən səhvlər dərhal düzəldilir və düzəlişlər dərc edilir.

6.4 Statistika orqanının iş metodları və qaydaları barəsində məlumatlar ictimaiyyət üçün açıqdır.

6.5 Statistik relizlərin tarixi və vaxtı barəsində əvvəlcədən məlumat verilir.

6.6 Metodologiyanın zəruri nəzərdən keçirilməsi və ya ona dəyişikliklər edilməsi ilkin xəbərdarlıqdan sonra həyata keçirilir.

6.7 Bütün istifadəçilər statistik nəşrlərə bərabər və eyni vaxtda girişə malikdirlər. Vaxtından əvvəl giriş hüququna malik olan kənar istifadəçilərin dairəsi məhdud xarakter daşıyır, onlara nəzarət olunur və geniş giriş təmin edilir. Məlumatların sızması

hallarında ədalətliliyə zəmanət vermək məqsədilə vaxtından əvvəl giriş şərtlərinə yenidən baxılır.

6.8 statistik nəşrlərdə və mətbuat konfranslarındakı bəyanatlar obyektiv və qərəzsiz xarakterə malikdir.

**Statistik proseslər**

Avropa statistikasının təşkili, toplanması, işlənməsi və yayılması proseslərində statistika orqanları Avropa və digər beynəlxalq standartlara, normativlərə və qabaqcıl təcrübənin prinsiplərinə bütövlükdə riayət edirlər. İdarəetmənin və səmərəliliyin məntiqə uyğunluğu sayəsində statistik məlumatlara inam artır. Vacib baxışlar metodologiyanın əsaslılığı, statistik üsulların əsaslandırılması, respondentlərə düşən yükün azaldılması və qənaətcillik hesab edilir.

**7-ci prinsip: Metodologiyanın əsaslılığı**

**Statistikanın keyfiyyəti metodologiyanın əsaslılığı ilə təmin edilir. Bunun üçün müvafiq vasitələr, üsullar və təcrübə lazımdır.**

**Göstəricilər:**

7.1 Avropa statistikası üçün ümumi metodoloji baza Avropa və digər beynəlxalq standartlara, normativlərə və qabaqcıl təcrübənin prinsiplərinə uyğundur.

7.2 Statistika orqanının bütün strukturunda standart anlayışların, təriflərin və təsnifatların davamlı tətbiqini təmin edən qaydalar mövcuddur.

7.3 Biznes registrin məlumatları və demoqrafik müayinələr üçün məlumat bazaları müntəzəm olaraq yoxlanılır və zəruri hallarda onların yüksək keyfiyyətini təmin etmək məqsədilə dəqiqləşdirilir.

7.4 Milli təsnifat sistemləri müvafiq Avropa sistemlərinə dəqiqliklə uyğun gəlir.

7.5 Ştat üzrə işə müvafiq ali təhsil müəssisələrinin məzunları götürülürlər.

7.6 Statistika orqanları öz mütəxəssisləri üçün davamlı peşəkar treninq siyasəti həyata keçirirlər.

7.7 Metodologiyanın təkmilləşdirilməsi, istifadə edilən metodların səmərəliliyinin artırılması və vasitələrin mümkün təkmilləşdirilməsi məqsədilə elmi cəmiyyətlərlə əməkdaşlıq təşkil edilmişdir.

**8-ci prinsip: Statistik prosedurların əsaslandırılması**

**Statistik məlumatların keyfiyyətinin əsasını, tətbiqi məlumatların toplanmasından başlayan və onların düzgünlüyünün yoxlanması ilə başa çatan əsaslandırılmış statistik qaydalar təşkil edir.**

**Göstəricilər:**

8.1 Avropa statistikasının inzibati məlumatlara əsaslandığı hallarda inzibati məqsədlər üçün istifadə olunan tərif və anlayışlar əhəmiyyətli dərəcədə statistikada istifadə edilən tərif və anlayışlara yaxınlaşır.

8.2 Statistik müayinələr keçirilərkən, məlumatların toplanmasından əvvəl sorğu vərəqlərinin müntəzəm yoxlanması həyata keçirilir.

8.3 Müayinələrin strukturu, seçmənin tərtib edilməsi və qiymətləndirmə sanballı əsaslara malikdir və zəruri olduqda, mütəmadi olaraq yenidən nəzərdən keçirilir və düzəldilir.

8.4 Məlumatların toplanması, daxil edilməsi və kodlaşdırılmasının müntəzəm monitorinqi aparılır və lazım olduqda düzəlişlər edilir.

8.5 Məlumatların təshihi və dəyişdirilməsi üçün müvafiq metodlardan istifadə olunur, onlar müntəzəm olaraq təhlil edilir, yenidən nəzərdən keçirilir və yaxud zəruri hallarda aktuallaşdırılır.

8.6 Səhvlərin və yanlışlıqların düzəlişi müəyyən edilmiş standartlara və şəffaf qaydalara uyğun olaraq həyata keçirilir.

8.7 Statistik məqsədlər üçün daha da faydalı olması üçün statistika orqanları inzibati mənbələrin planlaşdırılmasında iştirak edirlər.

8.8 İnzibati mənbələrin sahibləri ilə göstərilmiş məlumatlardan statistik məqsədlər üçün istifadə edilməsinə dair ikitərəfli öhdəlikləri nəzərdə tutan sazişlər bağlanır.

8.9 Keyfiyyətin təmin edilməsi məsələləri ilə bağlı statistika orqanları inzibati məlumat sahibləri ilə əməkdaşlıq edirlər.

**9-cu prinsip: Respondentlərə düşən yükün azaldılması**

**Məlumatların təqdim olunması üzrə yük istifadəçilərin tələbatlarına mütənasibdir və respondentlər üçün həddən artıq yüksək olmamalıdır. Statistika orqanları məlumatların təqdim edilməsi üzrə yükün monitorinqini həyata keçirir və onun tədricən azaldılması üzrə məqsədlər nəzərdə tutur.**

**Göstəricilər:**

9.1 Avropa statistikası sorğularının həcm və təfsilatı tam lazımı məlumatların əldə olunması ilə məhdudlaşdırılmışdır.

9.2 Məlumatların təqdim edilməsi üzrə yük mümkün qədər çox sorğu edilənlər arasında bölüşdürülür.

9.3 Müəssisələrdən sorğu edilən məlumatları asanlıqla onların mühasibat hesabatlarından əldə etmək olar. Belə məlumatların təqdim edilməsini sadələşdirmək üçün imkan daxilində məlumatların elektron ötürülməsi vasitələrindən istifadə edilir.

9.4 Məlumat sorğularının təkrarlanmasına yol verməmək üçün, mümkün qədər, inzibati mənbələrdən daha çox istifadə edilir.

9.5 Müayinələrin sayının azaldılması məqsədilə statistika orqanları daxilində məlumat mübadiləsi qəbul edilmiş hal hesab edilir.

9.6 Respondentlərə düşən yükün azaldılması məqsədilə statistika orqanları məlumat mənbələri arasında əlaqəni təmin edən tədbirlər görürlər.

**10-cu prinsip: Qənaətcillik**

**Ehtiyatlardan səmərəli istifadə edilməlidir.**

**Göstəricilər:**

10.1 Statistika orqanı tərəfindən mövcud ehtiyatlardan istifadə edilməsinə həm daxili tədbirlərin, həm də kənardan müstəqil vasitələrin köməyilə nəzarət olunur.

10.2 Məlumatların toplanması, işlənməsi və yayılması sahəsində informasiya və kommunikasiya texnologiyalarının məhsuldar potensialı daima optimallaşdırılır.

10.3 İnzibati məlumatların statistik potensialının artırılması və birbaşa müayinələrin sayının məhdudlaşdırılması üçün qabaqlayıcı tədbirlər görülür.

10.4 Statistika orqanları məhsuldarlıq və səmərəliliyi artırmaq üçün standartlaşdırılmış qərarlar qəbul edir və yerinə yetirirlər.

**Buraxılış statistik məlumatlar**

İstifadəçilərin sərəncamına verilən statistik məlumatlar onların tələbatlarına cavab verir. Statistik məlumatlar Avropanın keyfiyyət standartlarına uyğundur və Avropa təşkilatlarının, hökumətlərinin, tədqiqat idarələrinin, istehsal birliklərinin və

ümumilikdə, bütün əhalinin ehtiyaclarına xidmət edir. Buna görə də statistik məlumatların nə dərəcədə aktual, dəqiq və etibarlı, vaxtında, davamlı, əlaqəli olması, onların regionlar və ölkələr üzrə nə dərəcədə müqayisə edilə bilməsi və istifadəçilər tərəfindən nə dərəcədə asanlıqla əldə edilə bilməsi vacibdir.

**11-ci prinsip: Aktuallıq**

**Avropa statistikası istifadəçilərin tələbatlarını ödəyir.**

**Göstəricilər:**

11.1 istifadəçilərlə məsləhətləşmələrin aparılması, aktuallığın və hazırkı istifadəçilərin tələbatları haqqında mövcud statistik məlumatların praktiki faydasının yoxlanması, həmçinin onların gələcək tələbatlarının və prioritetlərinin müəyyən edilməsi qaydaları mövcuddur.

11.2 Prioritet tələbatlar təmin edilir; bu, iş proqramında öz əksini tapır.

11.3 İstifadəçilərin məmnunluqlarının səviyyəsini müntəzəm olaraq diqqət mərkəzində saxlanılır və sistematik olaraq nəzərə alınır.

**12-ci prinsip: Dəqiqlik və etibarlılıq**

**Avropa statistikası gerçəkliyi dəqiq və doğru əks etdirməlidir.**

**Göstəricilər:**

12.1 İlkin məlumatlar, aralıq nəticələr və buraxılış statistik məlumatlar müntəzəm qiymətləndirilir və düzgünlüyü yoxlanılır.

12.2 Seçmənin xətaları və digər səhvlər Avropa standartlarına uyğun olaraq qiymətləndirilir və sənədləşdirilərək mütəmadi olaraq qeydə alınır.

12.3 Statistik proseslərin təkmilləşdirilməsi məqsədilə müntəzəm düzəlişlər aparılır.

**13-cü prinsip: Vaxtlı-vaxtında olma və dəqiqlik**

**Avropa statistikası lazımlı vaxtda və gecikdirilmədən yayılmalıdır.**

**Göstəricilər:**

13.1 Nəşrlərin vaxtlı-vaxtında olması Avropa və digər beynəlxalq standartlara uyğundur.

13.2 Gündəlik statistik nəşrlərin standart vaxtı haqqında məlumat hamı üçün açıqdır.

13.3 Avropa statistikasının dövriliyi maksimal dərəcədə istifadəçilərin tələbatlarını nəzərə alır.

13.4 Məlumatların buraxılış qrafikindən istənilən kənarlaşması barəsində əvvəlcədən elan verilir, onun səbəbləri göstərilir və buraxılış üçün yeni vaxt təyin edilir.

13.5 Faydalı olduğu halda, münasib keyfiyyətin ilkin nəticələrinin yayılmasına yol verilir.

**14-cü prinsip: Qarşılıqlı əlaqə və müqayisəlilik**

**Avropa statistikası daxildə və vaxta görə qarşılıqlı əlaqəlidir, regionlar və ölkələr üzrə müqayisəlidir, bu da məlumatların kombinə edilməsi və müxtəlif mənbələrdən olan bir-biri ilə əlaqəli məlumatlardan eyni vaxtda istifadə etməyə imkan verir.**

**Göstəricilər:**

14.1 Statistik məlumatlar daxili yekdilliyə və ardıcıllığa malikdirlər (məsələn, onlarda hesabi və mühasibat oxşarlığı qorunur).

14.2 Statistik məlumatlar zaman aralığı çərçivəsində öz müqayisəliliyini qoruyur.

14.3 Statistik məlumatların toplanması müxtəlif müayinələr və mənbələrdə tətbiq edilən əhatəyə, təriflərə, vahidlərə və təsnifatlara aid olan vahid standartlar əsasında yerinə yetirilir.

14.4 Müxtəlif mənbələrdən və müxtəlif dövrlərdən olan statistik məlumatlar müqayisə olunur və uyğunlaşdırılır.

14.5 Avropa statistika sistemi çərçivəsində müxtəlif ölkələrin məlumatlarının müqayisəsi Avropa və digər statistika sistemləri arasında vaxtaşırı məlumat mübadiləsi əsasında təmin edilir. Metodoloji tədqiqatlar Aİ-yə üzv ölkələr və Avrostat arasında sıx əməkdaşlıq çərçivəsində aparılır.

**15-ci prinsip: Mümkünlük və aydınlıq**

**Avropa statistikası aydın və başa düşülən formada təqdim olunur, münasib və rahat üsullarla yayılır; onlara giriş və onlardan istifadə olunması hamı üçün eyni şərtlər çərçivəsində təmin edilir, statistik məlumatlar meta məlumatlar və izahlarla müşayiət olunur.**

**Göstəricilər:**

15.1 Statistika və müvafiq meta məlumatlar onların düzgün şərhini və anlaşılan müqayisəsini asanlaşdıran formada təqdim edilmiş və arxivləşdirilmişdir.

15.2 Məlumatları yayma xidmətləri müasir informasiya və kommunikasiya texnologiyalarından istifadə edirlər, lazım olduqda isə məlumatlardan ənənəvi kağız formada istifadə edirlər.

15.3 Əgər texniki cəhətdən yerinə yetirilməsi mümkündürsə, onların nəticələri açıqlanırsa, onda sifarişli tədqiqatlar həyata keçirilir.

15.4 Ciddi protokollara və xüsusi qaydalara riayət etmək şərti ilə tədqiqat məqsədləri üçün mikro məlumatlara girişə icazə verilir.

15.5 Meta məlumatlar standartlaşdırılmış meta məlumat sistemlərinə uyğun olaraq sənədləşdirilir.

15.6 İstifadəçilər statistik proseslərin metodologiyasına, o cümlədən inzibati məlumatlardan istifadəyə dair metodologiyaya uyğun olaraq məlumat əldə edirlər.

15.7 İstifadəçilər statistik buraxılış məlumatların ASS keyfiyyət meyarlarına uyğunluğu haqqında məlumatlar əldə edirlər.

## AVROPA STATİSTİKASININ NORMALAR MƏCƏLLƏSİ HAQQINDA ƏLAVƏ MƏLUMAT:

http://ec.europa.eu/eurostat/quality - e-poçt: ESTAT-QUALITY@ec.europa.eu

Nəşrlər bürosu
ISBN 978-92-79-21679-4-doi:10.2785/18474-Cat. No KS-32-11-955-EN-C